# Ağdərənin 4 kəndində sakinlərə evlərinin açarları təqdim olunub

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, məcburi köçkünlər mərhələli şəkildə doğma yurda qayıdırlar. Ağdərə rayonunun təmir-bərpa işlərinin aparıldığı Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndləri də daimi sakinlərini qəbul etməyə hazırdır.**

AZƏRTAC xəbər verir ki, yanvarın 9-da Tərtərdən Ağdərə rayonunun Çıldıran, Aşağı Oratağ, Heyvalı və Çapar kəndlərinə ilk köç yola salınıb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. İlk mərhələdə Ağdərə rayonunun 4 yaşayış məntəqəsinə 89 ailə (337 nəfər), o cümlədən Aşağı Oratağ kəndinə 31 ailə (119 nəfər), Çapar kəndinə 26 ailə (96 nəfər), Heyvalı kəndinə 19 ailə (74 nəfər), Çıldıran kəndinə isə 13 ailə (48 nəfər) köçürülür. Ağdərənin Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndlərinə yola düşən ilk köç karvanı ünvana çatıb. Kəndlərə köçən 89 ailəyə evlərinin açarları təqdim olunub.









Ağdərə rayonuna çatan ailələri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarları təqdim edilib.

Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov və Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli keçmiş məcburi köçkünləri təbrik edərək, onlara xoşbəxt və firavan həyat arzulayıblar.

Bildirilib ki, köç olan kəndlərdə yaşayış üçün bütün zəruri infrastruktur yaradılıb. Yaşayış evləri bərpa olunub, elektrik, qaz, içməli su, yol və rabitə xətləri istifadəyə verilib. Köçən ailələrin məşğulluq məsələsi isə daim diqqət mərkəzindədir.

Sonra ailələr sevinc hissi ilə yeni evlərində yerləşiblər.

Azərbaycan. - 2026.- 10 yanvar (№ 5).- S.6.